

## RAFİQ AĞA QAFAR

### *QOCALARMIŞIQ...*

Həyat boyu keçdik təhlükələrdən,
Kənar qala bildik mərəkələrdən.
Düşdük at belindən, düşdük yəhərdən,
Hardadır cavanlıq, görkəm, yaraşıq?
Bilməzdik biz belə qocalarmışıq...

Gəzərdik, üzərdik, topla qaçardıq,
Oyun oynayardıq, idmanda vardıq.
Müdam yaxşı işlər gördük, bacardıq,
İndi bədən sönür, əl-qol qırışıq,
Bilməzdik biz belə qocalarmışıq...

Pillədən pilləyə qalxdıq həyatda,
Qardaşa, bacıya baxdıq həyatda.
Mübariz, mükəmməl, şaxdıq həyatda,
Əsas şüarımız tövbə, barışıq,
Bilməzdik biz belə qocalarmışıq...

Bütün suallara verərdik cavab,
Yeyərdik yağlı ət, quyruqdan kabab.
Bircə oturuma çox sayda qutab...
Mizdə duru xörək, əllərdə qaşıq,
Bilməzdik biz belə qocalarmışıq...

İndi gah kalsium çatışmazlığı,
Ürək döyüntüsü, qanın azlığı,
Gah gülüş yaradır başın dazlığı,
Tez-tez ağrıyırıq, fikir qarışıq,
Bilməzdik biz belə qocalrmışıq...

Bəlkə də arzuya, kama yetmişik,
Altmış da geridə qaldı, yetmişik.
Əvvəlimiz beşik, sonumuz beşik,
Kimsə bizdən sonra deyər varmışıq,
Bilməzdik biz belə qocalarmışıq...

Zaman saatlarla ölçülür, çıq-çıq,
Əzrayıl qapını döyməkdə, tıq-tıq.
Xəyal pərvazlanır, görünür artıq,
Tunelin sonunda ağappaq işıq -
Bilməzdik biz belə qocalarmışıq...

Gəncliyi vermişdi, alır təbiət,
İnsanı pis günə salır təbiət.
Gələn gedəsidir, qalır təbiət,
Yaxın zamanlarda torpağıq, daşıq
Bilməzdik biz belə qocalarmışıq...

Piyada gəzirik, daralır nəfəs,
Çatır yuxarıdan qulaqlara səs:
"İşinə yekun vur, qiyama tələs!"
Sazı qəmli-qəmli çalmaqda aşıq,
Bilməzdik biz belə qocalarmışıq...

İnsan istəmədən dünyaya gəlir,
Bir ömür yaşayır, ağlayır, gülür,
Nə zaman keçinir, nə dərddən ölür,
O-lu-mu, ö-lü-mü hecalarmışıq
Bilməzdik biz belə qocalarmışıq...

### *QALIR*

Sevinirəm yavaş-yavaş
Qayıtmağa vaxt az qalır,
Gün olsun ki, deyim: "yoldaş",
Mən gedirəm, Əhvaz qalır.

Hərarətlə işləyən İES,
Çox yubandı, olmadı tez.
Deyərik xub, söylərik yes,
Söz hazırdır, avaz qalır.

Havadan od, köz ələnir,
Ürək, əsəb nizələnir,
İnsan burda xəstələnir,
Qanmaz gələn, qanmaz qalır.

Neçə illər yordu bizi,
Artıq işlər bir hissəsi,
Hələ təhvil veriləsi,
Kran, vaqon, kraz qalır.

## *CƏRRAHİYYƏ OTAĞI*

Cərrahiyyə otağı,
Otaq sakit, otaq lal...
Buranın tək hakimi,
Gözlərdəki tək sual...

Xəstəyə vurulur qan,
Bərk təlatümdədir can,
Yaşayacaqmı insan?
Hələlik bu bir xəyal.

Uzaq olsun bizdən şər,
Cərrahlar axıdır tər,
Ömür getməsin hədər,
Xəstəlikdir xırda xal.

Xəstə yeri tez kəsin,
Onun üstündə əsin,
Əliniz titrəməsin!
İşləsin zəka, kamal!

Görünür cigər, mədə,
Əlac tapılır dərdə,
Onu yaxın günlərdə,
Gözləyir sevgi, vüsal...

## *DÜNYA DOĞRULU YALAN*

Dünya ölüm-itimdir,
Dünya dolu yetimdir,
Həmişəlik de kimdir,
Dünyanı tutub qalan?
Dünya doğrulu yalan.

Dünya yüksək qatda heç,
Dünya çatha-çatda heç,
Dünya kainatda heç,
Giriş var, sonu dalan,
Dünya doğrulu yalan.

Dünya dolu çaxnaşma,
Zəlzələ, tufan, daşma,
Dünya gəlmir xoşuma,
Şir ölür, qalır ilan,
Dünya doğrulu yalan.

Görünənlər görünür,
"Bürünənlər bürünür",
Sürünənlər sürünür,
Öləcəkdir doğulan,
Dünya doğrulu yalan.

Neçə-neçə ad yoxdur,
Qohum yoxdur, yad yoxdur,
Məşədi ibad yoxdur,
Yox arşınla mal alan,
Dünya doğrulu yalan.

## *MƏHƏBBƏTƏ BAX*

Məhəbbətə bax,
Körpə cücərti.
Məhəbbətə bax,
Vaxtsız cücərdi.

Məhəbbətə bax,
Qüvvəsinə bax.
Zahirinə yox,
Nüvəsinə bax.

Məhəbbətə bax,
Yordu bədəni.
Edər adamı,
Qeyri-mədəni.

Gözdən nur alar,
Əyər qəddini,
Unutdurar da
İsmi cəddini.

Bu məhəbbətə
Andlar içilər,
Bunu görüncə,
Qalxdı elçilər.

Oğlan düşündü,
Cavab olar nə?
Elçilər aldı,
Dırnaq içi "hə".

Deyilmədi ki,
Boş-boşuna sev.
Dedilər ki, get,
Tap özünə ev.

Sevgin nə məşhur
Nə adlı olsun.
Nə quşlar kimi,
Qanadlı olsun.

Uçma sevginin
Asimanında.
Öz evində ol,
Diplom yanında.

Başqa heç şeyin,
Fikrini çəkmə.
Nə paltar, kostyum,
Nə papaq, çəkmə.

Məhəbbətə bax,
Milyon ilmədi.
Məhəbbətə bax,
Dəyişilmədi.

Atdı qol-budaq,
Oldu bir ağac.
Havaya möhtac,
Günəşə möhtac.

Günəş nur verdi,
Torpaq isə su.
Uddu havanı,
Sinə dolusu.

Ucaldı boyu,
işlədi kökü.
Düşdü çiyninə
Məhəbbət yükü.

Bu məhəbbətə,
Dözən can gərək.
Nə soyuducu,
Nə avtomobil,
Nə üç göz otaq...
Bu məhəbbətə
Asiman gərək.

## HAL-HAZIRDA

İşsizlik çox üzgün olur,
Evdə bir gün yüz gün olur,
İşsiz adam küskün olur,
Gözə gəlib nal hazırda,
İşləmirəm hal-hazırda.

İIdarəylə əlaqə qur,
Yollan ora növbədə dur,
İşləməyən qeyd olunur,
Get status al hazırda,
İşləmirəm hal-hazırda.

Çap edirlər elanları,
İş haqqında yalanları,
Axtarırlar "cavanları",
İş sahibi lal hazırda,
İşləmirəm hal-hazırda.

Darmadağın fabrik, zavod,
Kömək etmir bilik, savad,
Deyinməkdə evdə arvad,
İtirirəm xal hazırda,
İşləmirəm hal-hazırda.

Qalıb işsiz soruşanlar,
Tapmır qəpik-quruş onlar,
Gətirməyir duruş onlar,
Yoxdur kərə, bal hazırda,
İşləmirəm hal-hazırda.

Yoxdur evdə ət, balıq, un,
Yumurtadan qırxırıq yun,
Faydası yox qaraskopun,
Kömək etmir fal hazırda,
İşləmirəm hal-hazırda.

Dolanmaqdan gözünü çək,
Dağdan-bağdan gözünü çək,
Tərəzidə özünü çək,
Ağzı açıq qal hazırda,
İşləmirəm hal-hazırda.

Xəbərdaram qüsurumdan,
İşsiz qaldım qürurumdan,
Ötənləri o qurumdan,
Xatirinə sal hazırda,
İşləmirəm hal-hazırda.

Cəmiyyətdə yerim vardı,
Alım vardı, verim vardı,
Nə gündədir indi xardır,
O Rüstəmi-Zal hazırda,
İşləmirəm hal-hazırda.

Tanış-biliş üz döndərib,
Gəlib-gedən iz döndərib,
Qayınana yüz göndərib,
Baldız ərzaq, mal hazırda,
İşləmirəm hal-hazırda.

Əynim zolaq-zolaq deyil,
Əlim qolum çolaq deyil,
Başımdakı papaq deyil,
Bağlamışam şal hazırda.
İşləmirəm hal-hazırda.

Vəziyyət pis, fövqəladə,
Quruldayır, acdır mədə,
Hələ qalıb təqaüdə,
Öyrən zurna çal hazırda,
İşləmirəm hal-hazırda.

Bir nəticə vermir səyim,
Ünvanına çatmır rəyim,
Mənə mənim öz taleyim,
Çeviribdir dal hazırda,
İşləmirəm hal-hazırda.

İcarəyə verib evi,
Tövlədəyik ailəvi,
Göndərmişəm neçə SV,
Tərcümeyi-hal hazırda,
İşləmirəm hal-hazırda.

---

## ƏHVAZDA

Kaş ki, qoymayaydım buraya qədəm,
İmkanım da yoxdur, yığışıb gedəm.
Bura pakistanlı dedi "cəhənnəm",
Yoxdu müqayisə, pisdi Əhvazda.
Adamı məst edir isti Əhvazda.

Zeytun Karməndidə dar küçələr var,
Qurbağa nəfəsli gölməçələr var,
İş də başdan aşır, axşam-səhər var,
Yoxdur müqayisə, pisdir Əhvazda.
Adamı məst edir isti Əhvazda.

Küləyi qalxdımı hər yeri bağla,
Darıxsan gülginən, karıxsan ağla,
İrana yığışsan yadında saxla,
Yoxdur müqayisə, pisdi Əhvazda.
Adamı məst edir isti Əhvazda.

## ÖZ-ÖZÜMƏ GÜLÜRƏM

Tale məni arzuma nail etdi,
Imkanım var İranı yaxşı görüm.
Keçən gündən mən Arazı-sərhəddi,
Darıxıram uzaqdır nadinc Kürüm.

Göy-göl uzaq, uzaqdadır Muğan da,
Bakı haqda danışmağa söz çoxdur.
Tamaşalı şəhərlər var İranda,
Ancaq məni ora göndərən yoxdur.

Əhvaz məndə çox pis təsir oyadır,
Tehran ilə müqayisə etmirəm.
İsti boğur, toyuqlar balıq dadır,
İmkan yoxdur başqa yerə getmirəm.

Çox istərdim yaxında Xəzər, ya da,
Göz aldadan başqa dəniz olaydı.

Niyə düşdüm cəhənnəmə, bu oda?
Heç olmasa yerim Təbriz olaydı.

İki illik ayrılmışam Vətəndən,
Dərk edirəm qürbətdəyəm, bilirəm.
Getməyəydin haqlı olar hər deyən,
Kədərliyəm, öz-özümə gülürəm...

## SƏNSƏN

Bir dünya şairi təkrar edirəm,
Ən uca dağların zirvəsi sənsən,
Fikrimi atlara süvar edirəm,
Yelləncəyin sabit nöqtəsi sənsən.

Fikrin yuxuma da güc göstərir, güc,
Yatmaq istiyirəm, fikirlər axın...
Nə bıçaq yeridir, nə kəsər ülgüc,
Bəlkə yuxuladım səhərə yaxın...

Təzə geyimdəyəm, sən ağ paltarda,
Ulduzlar arası seyrə dalmışıq...
Yerdən əl ələyir bizə bahar da,
Ürək istəyəni indi almışıq.

Gözlərim açılır soyuq otağa,
Səni görməyirəm çəkirəm haray.
Niyə üsyan edir külək, qasırğa,
Pəncərə layları açılıb lay-lay.

Nahaq keçirmişəm həyəcan, qorxu,
Qalxıb pəncərəni bağlayıram bərk.
Səninlə olmağım yuxuymuş, yuxu,
Sənsiz olmağıma ağlayıram bərk.

Tapa bilmisizsə siz nişan verin,
Sevgi kədərinə bərabər kədər.
Siz mənə bir həkim, loğman göstərin,
Ki, sevgi dərdini sağalda bilər.

Külək yox, xəyalın dolub otağa,
Önümdə əksini yaradır gözüm.
Hələ imkan yoxsa biz qovuşmağa,
Sevinnəm fikrimiz qovuşa bizim.

Şair sevdiyinə deyib, deyəcək,
-Varlığın ən ali rütbəsi sənsən.
Yenə düşünürəm, fikrim yelləncək,
Yelləncəyin sabit nöqtəsi sənsən.

## ƏZİZİM

Birgə keçdik illəri bir-birinə tamarzi
Şəfalıdır telləri, həyat verir təması

Özü dəyişməyib heç, sözü dəyişməyib heç,
Düzü dəyişməyib heç, dəyişən tək libası

Yükünü karvan sürür, sevənlər dövran sürür
Eşq, məhəbbət püskürür evimizin sobası

Gülüşü təbiəti, ağlamağı yox qəti,
Bəsdir mənə diqqəti, ölüm, olum fədası

Yellənirəm yeyir can, dillənirəm deyir can
Öpür yanaqlarımdan iki daşın arası

Fikri gəzir bir məni,zikri gəzir bir məni,
Eyləyibdir pir məni, uşaqların anası

Hazırlar hər cür təam, səhər, günorta, axşam,
Doşab yox, bal almışam, can mərhəmi-qidası

Zaman gəlib keçməkdə, hikmət var yar seçməkdə,
Tez-tez yada düşməkdə ilk görüşün sevdası

Sevir nəsə toxuya, dodaqaltı oxuya,
Verir məni yuxuya, nəvələrə laylası

Yanımdadır əzizim, dadlım, duzlum, ləzizim
O füsünkar dənizim, mən də onun adası

Ürəyimdə bir nida,hazıram deyim vida,
Məhv ola bilər ada, qalsın dəniz, dalğası

Allah mümkünsə əgər, köçüm gedim bir səhər
Yoxsa məni öldürər ayrılığı, vidası.